UOT 371

***Şəfəq Müzəffər qızı Məmmədova***
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun əməkdaşı*

# NİZAMİ GƏNCƏVİNİN POEMALARINDA TƏRBİYƏ MƏSƏLƏLƏRİ

***Шафаг Музаффар гызы Мамедова***
*сотрудник Института Образования Азербайджанской Республики*

# ВОПРОСЫ ВОСПИТАНИЯ В ПОЭМАХ НИЗАМИ ГЯНДЖЕВИ

***Shafag Muzaffar Mamedova***
*employee of the Institute of Education of the Republic of Azerbaijan*

# ISSUES OF EDUCATION IN THE VERSES OF NIZAMI GANJAVI

**Xülasə.** Nizami Gəncəvi yaradıcılığında pedaqoji elmin əsas problemi olan şəxsiyyət, insan amilinə sistematik olaraq münasibət bildirilmişdir. Böyük mütəfəkkir bir çox elmlərə dərindən bələd olaraq əsərində biliklərindən istifadə etmiş və gənc nəslin tərbiyəsində şəxsiyyət haqqında dəyərli fikirlər söyləmişdir. Onun bir əsr əvvəl söylədiyi fikirləri bu gün də aktualdır.

***Açar sözlər:*** *Nizami Gəncəvi, tərbiyəvi, şəxsiyyət, insan, gənc nəsil, humanizm, təlim-tərbiyə, ailə-övlad münasibətləri, əxlaq qaydaları*

**Резюме.** Личность, человеческий фактор, являющийся главной проблемой педагогической науки, систематически проявляется в творчестве Низами. Великий мыслитель, глубоко знакомый со многими науками, пользовался этими науками в своей работе и высказал ценные идеи о личности, которые широко использовались в воспитании подрастающего поколения и используются до сих пор. Идеи великого Низами Гянджеви, которые он высказал столетие назад, актуальны и на сегодняшний день.

***Ключевые слова:*** *Низами Гянджеви, образование, личность, человек, молодое поколение, гуманизм, образование, отношения семьи и ребенка, нравственные нормы*

**Summary.** Personality, the human factor, which is the main problem of pedagogical science, is systematically manifested in the work of Nizami. The great thinker, deeply familiar with many sciences, used these sciences in his work and expressed valuable ideas about personality, which were widely used in the upbringing of the younger generation and are still used today. His ideas about thinking, are still relevant today.

**Key words:** *Nizami Ganjavi, education, personality, person, young generation, humanism, education, family and children's relations, moral norms*

Birgəyaşayış şəraitində insanların bir-birinə kömək, yardım əli uzatması zəruri, vacib hal kimi insaniyyətin əsasını təşkil edir. Bu baxımdan humanistliyin mahiyyəti, ifadə formaları ilə bağlı yaradıcılıq irsi ilə sağlığında əbədiyyət qazanmış Nizami Gəncəvi xalqın işinə, amalına yararlı olmağı insaniyyətliliyin əsası kimi qiymətləndirilir.

Pedaqogika elmi üçün əsas problem sayılan şəxsiyyət, insan amili Nizami yaradıcılığında sistemli bir şəkildə özünü göstərir. Böyük mütəfəkkir çox elmlərə dərindən bələd olduğu üçün yaradıcılığında da həmin elmlərdən bəhrələnərək şəxsiyyət haqqında dəyərli fikirlər söyləmişdir ki, onlardan gənc nəslin təlim-tərbiyəsində geniş istifadə olunmuş və bu gün də istifadə olunmaqdadır.

Nizami Gəncəvi dünya ədəbiyyatı tarixinə məsnəvi formasında yazdığı beş poemadan ibarət "Xəmsə" müəllifi kimi daxil olmuşdur. 1175-ci ildə "Sirlər xəzinəsi", 1180-ci ildə "Xosrov və Şirin", 1188-ci ildə "Leyli və Məcnun", 1196-cı ildə "Yeddi gözəl", 1203-cü ildə isə "İsgəndərnamə" poemasını yazmışdır.

N. Gəncəvi insan şəxsiyyətinə inanır, onun ağlına, hissi emosional xüsusiyyətlərinə yüksək

qiymət verərək insanları humanizmə, ədalətə, əxlaq qaydalarına riayət etməyə çağırırdı.

Nizaminin bütün yaradıcılığından qırmızı xətt kimi keçən dərin humanizm və sosial ədalət motivləri onun lirikasında da özünü qabarıq şəkildə göstərməkdədir [2, s. 23].

Nizami irsində bu problem hələ XI əsrdə "kəşf" edilmiş və onun əsərinin əsas ideyasını təşkil etmişdir. Ə. Bayramov Nizami irsində psixoloji fikrin, o cümlədən, şəxsiyyətin öyrənilməsinin ümumi-nəzəri, tarixi əhəmiyyətini qeyd edərək yazır: "Belə bir kəşfi Nizami artıq XII əsrdə etmişdir: insan və təbiət, insan və cəmiyyət, insan və ölkənin ağıllı idarə edilməsi, insan və problemlər barədə onun mənəvi təkamülü, insan və onun mürəkkəb daxili ruhu aləmi, hiss və emosiyaları, insan və dünya sirri, insan və onun həyatının sonu, başqa sözlə, insan və ölüm və s. Bütün bu bəşəri problemlər barədə Nizaminin fikir və düşüncələri öz prinsipiallığı, aktuallığı və müasirliyi ilə diqqəti cəlb edir" [2, s.25].

Ümumbəşəri ideyalar tərənnümçüsü Nizami Gəncəvinin əsərlərində təlim-tərbiyə məsələləri böyük yer tutur. Nizami öz dərin mənalı və hikmətli əxlaqi nəsihətləri, tərbiyəedici fikirləri ilə valideynlərə, gənclərə ailə-övlad münasibətlərinə dair ibrətamiz fikirlər söyləmişdir.

Nizami oğlu Məhəmmədə üç dəfə ("Xosrov və Şirin"də, "Leyli və Məcnun"- da, "Yeddi gözəl"də) nəsihət etmişdir. Nəsihətlərin mahiyyəti və məzmunu hər bir yaş dövrünə (uşaqlıq, yeniyetməlik, gənclik) uyğun edilir. Nizami birinci nəsihətində gözünün nuru, dilinin əzbəri, qəlbinin qüruru olan yeddi yaşlı oğluna əlinə qələm alıb öyrənməyi, tərbiyəli, namuslu olmağı məsləhət görür. Nizami ikinci nəsihətində on dörd yaşlı başı sərv kimi göylərə ucalan oğluna müraciət edərək deyir ki, qəflətdən oyanma, qeyrət vaxtıdır, indi hünər vaxtı, şöhrət vaxtıdır. Nizami onunla keçən uşaqlıq həyatının arxada qaldığını, elm öyrənməyin zəruriliyini qeyd edib oğluna deyir ki, uşaqkən əslini sorsalar da sonralar bunu yada salan olmur. Səadəti, xoşbəxtliyi kamalla, ədəblə əldə etmək olur. Nizami oğlunun şeirə, sənətə həvəs göstərdiyini xüsusi qeyd edir. Şair onu da oğluna xatırladır ki, hər hansı bir elmi öyrənərkən onu kamil bilmək lazımdır.

O, bütün poemalarında, oğlu Məhəmmədə nəsihətlərində insan mənəviyyatını təşkil edən əxlaq normalarının gözlənilməsinin və ona əməl edilməsinin vacibliyini zəruri sayırdı. Məhz ona görə də Nizami poemalarında ailə, ata-oğul, ana-qız, valideyn-övlad münasibətləri, ata qayğısı, ana yanğısı və s. məsələlərə aid çox qiymətli fikirlər mühüm yer tutur. Nizamiyə görə kimliyindən, mövqeyindən asılı olmayaraq hər bir ata, valideyn övladına qayğı göstərməli, onun qəbahətli hərəkətləri üçün cəmiyyət qarşısında məsuliyyət daşımalı, övladının günahlarına güzəşt etməməlidir.

Şair oğluna özünü zalımlardan qorumağı, getdiyi yolun çətinliklərini nəzərə almağı, ayıq-sayıq olmağı, yaxşı adamlarla ünsiyyət yaratmağı, hünər göstərməyi, ər olub qapılar açmağı, elm öyrənməyi, özünü dərk etməyi və özünü tanımağı, əməklə məşğul olmağı məsləhət görür və deyirdi ki, özünü dərk edən, əməkdə iştirak edən hər kəs dirilik suyu içə bilər, həyatda özünə xoş güzəran yarada bilər.

Nizami insanlara dövrün nurani adamlarının dili ilə müraciət edərək onları səbirli olmağa, hər işdə ağıllı hərəkət etməyə, dözümlülüyə, bacardığı işin arxasınca getməyə çağırırdı. "Oğlum Məhəmmədə nəsihət" də yazırdı ki, insan səadətə ağlı və kamalı sayəsində çatar. Xalqa hörmət etmək, ədəblə oturub-durmaq, Allah qorxusunu bir an unutmamaq, bacardığın işin dalınca getmək sənin əsas amalın olmalıdır. Sən unutma ki, üzərinə düşən bu vəzifələrin öhdəsindən bacarıqla gəlmək üçün elm arxasınca getməlisən. Oğul, xalqa cürbəcür yollarla kömək etmək olar. Bu zəmanədə təbib xalqın ən yaxın dostudur. Ancaq öz işini bilməyən qəddar bir düşmənə çevrilər. Ölümcül bir xəstəyə yeni həyat verən həkim ən müqəddəs, ən hörmətli bir insan sayılır. Mən sənə hansı sənəti seç demirəm. Hansı sənəti istəyirsənsə, qəbul et. Ancaq işində bilikli, ağıllı, bacarıqlı və kamil ol!

Nizami gənclərə çətinliklərə dözməyi, sirr saxlamağı, sözün qədir-qiymətini bilməyi tövsiyə edir. Söz ürəklərə can verir, onu yaşadır. Kainatın bütün sirləri sözlə açılır, söz incə olduğu kimi də kəsərli və itidir, onun izi uzun müddət yaddaşlardan silinmir.

Nizami "Xosrov və Şirin" poemasında insan ömründən, onun bütöv illərindən söz açır, gəncliyin çox tez ötüb keçdiyini bildirir. Ömründən otuz il keçibsə, qafil kimi yaşamaq olmaz. Həyatın nəşəsi qırx yaşa qədərdir. Qırxdan sonra həvəs azalır. Əllidən sonra insan tez-

tez xəstələnir, ayaqlar taqətini itirir, gözlərindən nur azalır. Altmışda insan bir yerdə məskən salır, yetmişdə isə bədən öz gücünü itirir. Elə ki, səksənə, doxsana çatdın, oradan özünü yetirdin yüzə, canlı da görünsən, ölüsən. Nizami bununla oğluna nəsihət verərək bütün gəncliyə çatdırır ki, həyatını mənalı yaşamalı, əməklə məşğul olmalısan. Nizami nəsihətləri nəsillərin varisliyini, övladlarımızın tərbiyəsini əks etdirir.

Nizami bu böyük ictimai problemi "Xosrov və Şirin" əsərində Hörmüz, Xosrov timsalında çox kəskin qoymuşdur. Hörmüzün oğlu şahzadə Xosrov "dəniz incisi", "nurlu çıraqların birincisi" olmasına baxmayaraq, rəiyyəti incitdiyinə görə atası tərəfindən ağır cəza alır. Nizami bununla qanunu pozanların, xalqa ziyan yetirənlərin şahzadə olsa belə cəzalandırılmasını zəruri sayır və Hörmüzün ədalətli hökmünü alqışlayırdı:

*"Hanı o ədalət, o insaf hanı?*
*Verə öz oğluna belə qazanc -*
*İndi yüz yoxsulun tökülsə qanı,*
*Durub tərəf çıxan bir adam hanı?"*
[3, s. 506]

O bildirir ki, öz həyat dünyasının bəzəyini artırmaq üçün arzu və istəklərlə yaşayan insan həmişə xoş ətir saçan xüsusiyyətləri ilə insaniyyətliliyini təsdiqləməlidir. Şair xatırladılan çağlarda insan üçün gərəkli, faydalı olan insani duyğuları aşağıdakı kimi ifadə edir:

*"Çalış öz xalqının işinə yara,*
*Geysin əməlindən dünya zərxara*
*Xoş ətirlər saçmaq istəyən adam*
*Gül tək xoşxasiyyət olmalı müdam.*
*Madam ki, sülh ilə göyərir dilək,*
*Döyüşdə at çapmaq daha nə gərək?"*
[3, s.64]

sualları ilə insanları qarşılaşdırır, deyilən müdrik fikirləri saf-çürük etməyə çağırır.

Nizami poeziyasında öz əksini tapmış mükəmməl şəxsiyyət konsepsiyası şairin təbiət və sosial gerçəkliyə dair fəlsəfi təlimi ilə bağlıdır. Şair insanın mahiyyəti, onun sosial və psixoloji təbiəti, bir-biri və digər canlılarla münasibəti, yer üzündə vəzifəsi, həyatının mənası, xoşbəxtliyə çatmaq yolları və vasitələri kimi məsələləri də məhz həmin mövqedən şərh edirdi. Belə bir maraqlı faktı da qeyd etmək lazımdır ki, "Xəmsə"yə daxil olan əsərlərin hər birində Nizami şəxsiyyət probleminin müxtəlif tərəflərini tədqiq edir.

Şəxsiyyət, insan amili Nizami yaradıcılığında sistemli bir şəkildə özünü göstərir. "Nizami Gəncəvinin yaradıcılığında şəxsiyyət psixologiyası problemi" adlı dissertasiyada Nizami yaradıcılığı, əsərlərinin pedaqoji-psixoloji təhlili, şəxsiyyətlə bağlı söylədiyi fikirlər təhlil edilmişdir. Müəllif qeyd edir ki, "Nizami poeziyasında öz əksini tapmış mükəmməl şəxsiyyət konsepsiyası şairin təbiət və sosial gerçəkliyə dair fəlsəfi təlimi ilə bağlıdır. İctimai varlığı və onun başlıca hərəkətverici qüvvəsi olan insanı geniş planda götürüb mənalandıran böyük şair insanın mahiyyəti, onun sosial və psixoloji təbiəti, bir-biri və digər canlılarla münasibəti, yer üzündə vəzifəsi, həyatının mənası, xoşbəxtliyə çatmaq yolları və vasitələri kimi məsələləri də məhz həmin mövqedən şərh edirdi. Belə bir maraqlı faktı da qeyd etmək lazımdır ki, "Xəmsə"-yə daxil olan əsərlərin hər birində Nizami şəxsiyyət probleminin müxtəlif tərəflərini tədqiq edir" [8 , s. 12].

Nizaminin səmimi və müqəddəs ailəyə münasibəti "Yeddi gözəl"də poetik ifadəsini tapmışdır. Nizami bu əsərdə də Bəhramın tərbiyəsinə xüsusi diqqət yetirir, onun həyat salnaməsini poetik dillə təsvir edir. Bəhram yeddi gözəlin hər birinin özünəməxsus məzmunlu söhbətlərini dinləyir, onlardan konkret nəticələr çıxarır. Nizami Şərq aləmində geniş yayılmış Xeyir və Şər qüvvələrinə özünün dərin fəlsəfi, poetik münasibətini bildirərək xeyir qüvvələrin tərəfində durub onların qələbəsinə sevinir. Nizami, əvvəlki əsərlərində olduğu kimi, "Yeddi gözəl"də də öz ideyasına sadiq qalaraq ailə, nikah məsələlərinə münasibətini bildirir, nikahın birliyin şərti, nəsillərin davamı olduğunu göstərir. O, bu məsələni Çin gözəlinin danışdığı "Xeyir və Şər" nağılında təsvir edir. Şərin kor etdiyi Xeyiri kürd qızı evlərinə gətirir, gözəl bir oğlanın faciəsini ata-anasına bildirir. Ata qızı ilə birgə Xeyiri müalicə edir. Xeyirin kor edilmiş gözlərinə işıq gəlir. O, böyük xeyirxahlığa namuslu əməyi ilə cavab verir. Xeyir kürdün qızını sevir, lakin o, məhəbbətini bildirməkdən çəkinir. Çünki Xeyir kasıb, kürd isə dövlətlidir. Xeyir qəlbində baş qaldıran hisslərini soyutmaq, unutmaq məqsədilə bu yerlərdən uzaqlaşmağı qərara alır. Məqsədini qoca kürdə bildirir. Dünya görmüş

qoca bu nəcib və əməksevər oğlana onun kürəkəni olmasını, bir yerdə qalıb xoş güzəran keçirməsini təklif edir. Kürd çox böyük təntənə ilə qızına toy edir, onları nikahla bir-birinə bağlayır. Nizami bunu belə ifadə edir:

*"Kürd vida eylədi şirin yuxuya,*
*Oyananda görməkçün tədarük toya.*
*Nikah ki, birliyin əzəl şərtidir,*
*Onunla nəsillər inkişaf edir"* [6, s. 236].

Nizami insan qüvvələrinə inanır və göstərir ki, təbiətə hakim olmaq üçün onu dərk etmək lazımdır; idrak təmkinli, təkidli əqli iş tələb edir. İdrak, hissi surətdə əldə edilib faktlara əsaslanan biliklərə istinad etdikdə düzgün olur. Hissi idrak və faktlar ağılı zənginləşdirir.

Nizami ağılı yüksək qiymətləndirir. İnsanı heyvanlardan fərqləndirən ağıl onun ən yaxın göstəricisidir. Ağıl təkcə idrakın mənbəyi olmayıb, həm də əxlaqın əsasıdır, adam öz rəftarında ağılı rəhbər tutmalıdır.

Nizami Gəncəvi "Leyli və Məcnun" əsərində Məcnun və Leylinin valideynlərinin timsalında orta əsrlərin qayda-qanunları, ailə ənənələri ilə yaşayan, lakin onlara yad, tanış olmayan baxışlarla qarşılaşan və ağır zərbələr alan, mənən sarsılan adamların həyat tərzi, taleyi, baxışları təsvir edilmişdir. Nizami əsərdə iki nəcib, ağıllı, şair təbiətli gəncin fəlakətinə səbəb olan, onların təmiz məhəbbətini tapdalayıb puç edən feodal əxlaq qaydalarını, şəxsiyyət azadlığını buxovlayan adət-ənənələri, qadın hüquqsuzluğunu, ağıllıları dəli sayan mühiti, gəncliyin qəmli taleyini təsvir etmişdir.

Leyli orta əsrlər şəraitində qadınların oyanmasının, insanlığı dərk etməsinin ümumiləşdirilmiş rəmzidir. Lakin zəmanə Leylinin insanlığını, mənəvi azadlığını qəbul etmir. Qadına əşya kimi baxan zəmanə onu asanlıqla alıb-sata bilir. Leyli öz daxili aləmində insanlığın əbədi məşəlini yandıran, özünün uğursuz, lakin müqəddəs, əlçatmaz məhəbbətinə sadiq bir insan kimi yaşayır. Məcnun kimi sevən, yanan, onun kimi şəhid olan Leyli Məcnunun qadın obrazıdır. Fərq ondadır ki, Məcnun dövrünün amansız qayda-qanunlarından qaçıb biyabanda vəhşilərlə yaşaya bilir, özünü zəncirləyib Leylini görə bilir, təbiətin azad qoynunda heyvan dostları ilə birgə nəfəs ala bilir, sərbəst hərəkət edir. Lakin bunları Leyli edə bilmir. Onun yeganə çıxış yolu özü ilə, öz daxili aləmi ilə yaşamaq, öz sevgisinə sadiq qalmaqdır.

Leyli ölən zaman ilk dəfə eşqini və dərdini anasına açır, dərin bir kədərlə qan rəngli kəfən arzulayan Leyli məhəbbət və həsrət dolu dillə Məcnunu anasına tapşırıb dünyadan köçür.

Beləliklə, dahi Nizaminin təlim-tərbiyə haqqındakı ölməz fikirləri bu gün də böyük əhəmiyyət kəsb edir. Xalqımızın milli mənlik ləyaqətinin təşəkkül tapdığı şəraitdə Nizami irsindəki təlim-tərbiyə fikirlərinə onun beytləri əsasında gənc nəsli tərbiyələndirmək, gəncliyin mənəvi aləminə Nizami hikmətləri ilə formalaşdırmaq zəruridir.

**Problemin aktuallığı.** Pedaqogika elmi üçün əsas problem sayılan şəxsiyyət, insan amili Nizami yaradıcılığında sistemli bir şəkildə özünü göstərir. Böyük mütəfəkkir çox elmlərə dərindən bələd olduğu üçün yaradıcılığında da həmin elmlərdən bəhrələnərək şəxsiyyət haqqında dəyərli fikirlər söyləmişdir ki, onlardan gənc nəslin təlim-tərbiyəsində geniş istifadə olunmuş və bu gün də istifadə olunmaqdadır.

Azərbaycan xalqı Vətən üçün canından çox sevdiyi övladını belə fəda etməyə hazır olan bir xalq olduğu üçün hər dönəmdə liderinə inanaraq onun yanında oldu, onun qərarlarını dəstəklədi. Xalq – Prezident həmrəyliyi, Ordunun gücü Vətənə öz töhfəsini verdi. Savaşdan zəfərlə çıxan Azərbaycan ordusunun nailiyyətləri davam edir. Daha da güclü olmalı, daha da zirvəyə qalxmalıyıq. Prezidentimizə güvənirik! Yaşasın Rəşadətli Ordumuz!

**Problemin elmi yeniliyi.** 2020-ci ilin oktyabrında Qələbə ilə nəticələnən 44 günlük müharibə bütün Azərbaycan xalqı üçün qürurverici və tarixi bir hadisədir. Bu ilin dahi şairin şərəfinə "Nizami Gəncəvi ili" elan olunması təsadüfi hadisə deyil. İkinci Qarabağ savaşı 30 ildən sonra doğma torpaqlara ayaq basdılar. Müasir gənclərin mənəvi tərbiyəsində dahi Nizaminin təlim-tərbiyə haqqındakı ölməz fikirləri bu gün də böyük əhəmiyyət kəsb edir.

**Problemin praktik əhəmiyyəti.** Məqalədən ali və orta məktəblərdə tərbiyə işlərinin təşkili prosesində istifadə etmək olar.

**Ədəbiyyat:**

1. Babayeva, T.T. Nizami Gəncəvi yaradıcılığında şəxsiyyət psixologiyası problemi: / psixologiya üzrə fəlsəfə doktoru dis. avtoreferatı) / - Bakı, 1993. - 26 s.
2. Bayramov, Ə.S. N. Gəncəvinin yaradıcılığında bir neçə etnopsixoloji məsələlər / Ə.S. Bayramov. – Bakı, – 1989. -235 s.
3. Gəncəvi, N. Xəmsə. Xosrov və Şirin / N. Gəncəvi. - Bakı: Yazıçı, - 1982. - 401 s.
4. Gəncəvi, N. Xəmsə. İsgəndərnamə / N. Gəncəvi. -Bakı: Yazıçı, -1982. - 688 s.
5. Gəncəvi, N. Xəmsə. Leyli və Məcnun / N. Gəncəvi. -Bakı: Yazıçı, -1982. - 303 s.
6. Gəncəvi, N. Xəmsə. Yeddi gözəl / N. Gəncəvi. -Bakı: Yazıçı, -1983. -355 s.
7. Gəncəvi, N. Xəmsə. Sirlər xəzinəsi / N. Gəncəvi. -Bakı: Yazıçı, -1982. - 653 s.
8. Nizamı Gəncəvi: biblioqrafiya. /tərt. ed.: M. İbrahimova, G. Misirova; ixt. red. və burax. məsul K. Tahirov; red. M. Vəliyeva; M.F. Axundov ad. Azərbaycan Milli Kitabxanası. - Bakı, -2012. – 632 s.

**E-mail:** Shefeq.2011@ mail.ru

**Rəyçilər:** *ped.ü.fəls.dok***.** **İ.B. Əmirəliyeva**
*ped.ü.fəls.dok.* **L.A. Məmmədli**

**Redaksiyaya daxil olub:** 21.05.2021